**UOT 792.03**

**MƏMMƏDSƏFA QASIMOV ***

# AKTYORLAR ZƏMANƏMİZİN GÜZGÜSÜDÜRLƏR

*Müxtəlif nəzəriyyələrin və konseptual ideyaları tədqiqinə həsr edilən məqalədə aktyor və zaman münasibətləri önə çəkilir. Burada teatr sənətinin inkişaf yoluna nəzər salınır, Stanislavski sisteminin təsiri ilə formalaşan səciyyələrə xüsusi diqqət yetirilir.*

*Məqalədə həmçinin dünyaşöhrətli dramaturqların teatr estetikası haqqında fikirləri müqayisəli şəkildə təhlilə çəkilir.*

**Açar sözlər:** *aktyor, teatr, Şekspir, Stanislavski, dramaturgiya, incəsənət*

Dahi Şekspirin yaratdığı ölməz qəhrəman Danimarka şahzadəsi Hamlet deyirdi: "Aktyorlar zəmanəmizin güzgüsü, əsrimizin qısa salnaməsidirlər. Onların haqqımızda dediyi yaman sözlər biz öləndən sonra başdaşımıza həkk olunacaq pis yazılardan daha pisdir" (11, s. 201). Bu cümlələr sonralar həm alimləri, həm də sənətkarları xeyli düşündürdü, aktyor sənəti ilə bağlı bir çox nəzəriyyə və təlimlərin yaranmasına təkan verdi.

Ümumiyyətlə, Şekspirin şah əsərinin qəhrəmanı bir çox dəyərli, tutarlı, bəzən isə müəmmalı fikirlər söyləmiş və mütəxəssislər indiyə qədər bu fikirlərin üzərində baş sındırmaqdadırlar. Amma nədənsə Şekspirin Hamletin dili ilə bəyan etdiyi və bu gün də aktual səslənən aktyor sənəti haqqındakı fikirləri müasirlərimizin diqqətindən yayınır. Halbuki yüksək poetik dildə ifadə olunan fikirlərin mahiyyəti öz çəkisini günlərimizə qədər itirməyib. Bu fikirləri sübuta yetirmək üçün ölməz faciənin sətri tərcüməsinə müraciət etməyə məcburuq. Çünki mövcud olan poetik tərcümələrdə söylədiyimiz məsələ, bir növ, adaptasiya şəkilində verilir və əslində, tərcüməçinin öz yozumu kimi nəzərə çatdırılır.

Tərcüməşünas Elşən Eynullayevin bizə təqdim etdiyi sətri tərcümələrindən mövzumuza müvafiq iki parçaya diqqət yetirək. Ardıcılığı qorumaq üçün ilk olaraq, "Hamlet" faciəsində ikinci pərdənin ikinci şəklinə nəzər salaq.

Süjetdən məlum olduğu kimi, Elsinor qəsrinə aktyor truppası təşrif buyurur və Hamlet onların tamaşaqabağı məşqlərinə baxaraq belə bir qənaətə gəlir.

- "Mən necə də yaramaz, alçaq qulam! Dəhşətlisi budur ki, bu aktyor xəyalları ilə, arzuladığı ehtirasları ilə ruhunu təxəyyülünə təslim edir, ruhunun təsiri altında onun bənizi çəkilib, gözləri yaşla dolur, görkəmindən dəlilik yağır, səsi titrəyir, bütün vücudu (hərfi mənada: funksiyaları - M.Q) təxəyyülünün yaratdığı obraza uyğundur. Və bütün bunlar heçdən! Hekubadan ötrü".

Göstərdiyimiz monoloqun ikinci cümləsinə fikir verək və onu realist-psixoloji teatr poetikasının aktyor sənəti - "yaşama məktəbi" adlanan üslubun prizmasından araşdıraq. Hamlet deyir: "...bu aktyor xəyalları ilə, arzuladığı ehtirasları ilə ruhunu təxəyyülünə təslim edir". Burada "ruh" söz-anlayışını K.S.Stanislavski sisteminin termini olan "yaradıcı təbiət" ifadəsi isə əvəz etsək, məlum olacaq ki, Hamlet aktyor sənətinin düşünüşlü texnika vasitəsi ilə (burda "xəyal" və "arzuladığı ehtiraslar" ifadələri "düşüncə" termininin ekvivalentidir) yaradıcı təxəyyülü "işə salmaq" üsulundan danışır.

Hamletin növbəti mülahizəsi K.S.Stansilavskinin "doğru vasitələr doğru ovqat yaradır" (bax 10) postulatının sanki illüstrasiyasıdır: "...ruhunu təxəyyülünə təslim edərkən onun bənizi çəkilib, gözləri yaşla dolur, görkəmindən dəlilik yağır, səsi titrəyir..."

Monoloqun növbəti mülahizəsi K.S.Stanislavski sistemində səhnə obrazının zahiri və daxili

təzahürlərinin uyğunluğu tələbi ilə birbaşa səsləşir: "...bütün vücudu (hərfi mənada: funksiyaları - M.Q.) təxəyyülünün yaratdığı obraza uyğundur.

Sitat gətirdiyimiz bu kiçik monoloqun qənaəti də olduqca maraqlıdır. Süjetdən məlum olduğu kimi, aktyor Hekubanın ölümü haqqında təsirli monoloq söyləyirdi. Aydın məsələdir ki, Hekubanın aqibətinin aktyorun həyatı ilə heç bir əlaqəsi yoxdur, söylədiyi sözlər hansısa pyesdəndir, yəni ki, özünün deyil və aktyorun bu qədər uydurulmuş mətləbə aludə olması onun, K.S.Stanislavskinin dili ilə desək, "yaşam təməlində başqalaşma" məharətindən xəbər verir. Odur ki, heyrətə gələn Hamlet "Və bütün bunlar heçdən! Hekubadan ötrü!" deyə aktyorun yüksək sənətkarlığını təsdiqləyir. Məhz bundan sonra uzun müddət fəaliyyətsiz və tərəddüdlərdə qalan Hamlet "siçan tələsi" adlı pyes yazır və aktyorların iştirakı ilə onu hazırlayıb, Klavdiyə göstərməklə "Kralın vicdanını oyatmaq" niyyətinə gəlir. Məşqlərdən biri "Hamlet" faciəsində üçüncü pərdənin ikinci şəklində təsvir olunub. Məsələnin tam açıqlanması üçün sözügedən parçanı yenə də sətri tərcümədə bütövlükdə vermək məcburiyyətindəyik.

"...Hamlet. Xahiş edirəm, monoloqu mənim oxuduğum kimi, yəni sözlər dilinizin ucunda oynayırmış kimi oxuyasız. Əgər siz də bir çox aktyorlarımız kimi bütün ağzınızla oxuyacaqsınızsa, onda mən şeirlərimin şəhər carçısı tərəfindən oxunmağını üstün tutardım. Və bax, belə - əlinizlə havanı həddindən artıq yarmayın. Amma hər şeyə həlim yanaşın, çünki sel axınına, tufana, hətta mən belə deyərdim ki, ehtiras burulğanına rəvanlıq verəcək dərəcədə mülayim olmalısınız.

İnanın, mən hansısa bir başı parikli yekəpərin səhnədə ehtirası xurd-xəşil edərək, əslində, səs-küy və onun mənasız pantomimlərindən tamaşaçıların qulağını batırmağa çalışmağını eşidəndə özümü qəlbimin dərinliklərində təhqir olunmuş sayıram. Mən istərdim ki, termaqantı termaqantlayan və irodu irodlayan bu sarsağı o ki, var qamçılasınlar. Xahiş edirəm, belə şeylərdən çəkinin.

Birinci aktyor. Buna mən zəmanət verirəm, möhtərəm prins.

Hamlet. Amma çox ağciyər də olmayın. Qoy, ustadınız sağlam düşüncəniz olsun. Hərəkətlərinizi sözlərlə, sözlərinizi hərəkətlərinizlə uzlaşdırın və ən əsası, təbiətin təvazökarlığından çıxmamağınıza diqqət yetirin. Çünki bu mənada, həddi aşmaq əzəldən indiyədək məqsədi təbiətin önündə güzgü tutaraq, comərdliyə onun xoş simasını, nifrətə layiq olana isə öz sifətini göstərən aktyor ifasının vəzifəsinə xəyanət deməkdir. Və bu, fikri teatrı dolduran bütün tamaşaçıların fikrindən daha dəyərli olan bir ağıl sahibini məyus edəcək. Mən elə aktyorlar görüb eşitmişəm ki, onları tərifləyib göyün üzünə çıxarıblar, lakin onlar nə nitqiylə, nə yerişiylə, Allah keçsin günahımdan, nə xristianlara, nə bütpərəslərə, nə də ki, insanlara bənzəyirdilər. Beləlvaleri səhnədə dəridən-qabıqdan çıxıb ulayarkən mən elə zənn edirdim ki, insanı təbiətin hansısa muzduru yaradıb, özü də çox yarıtmaz bir şəkildə, çünki onlar insan tayfasını son dərəcədə iyrənc təqlid edirdilər.

Birinci aktyor. Ümidvaram ki, biz özümüzdə bunları müəyyən dərəcə islah etmişik.

Hamlet. Lütfən bunu sondadək islah edin. Bir də təlxək rolunu oynayanlar onlar üçün yazılanlardan artıq heç nə söyləməsinlər. Onların arasında elələri var ki, pyesin vacib yeri çatar-çatmaz bir neçə kütbeyin tamaşaçını güldürmək üçün gülürlər. Bu iyrənclik belə hərəkət edən axmağın şöhrətpərəstliyinə dəlalət edir. Gedin, hazırlaşın".

Bu qədər uzun sitat verdiyimizə görə üzrxahlıq edib, təqdim etdiyimiz dialoqu aktyor sənətinin mühüm səciyyələri baxımından araşdıraq. Hamletin səsləndirdiyi birinci "xahiş" aktyor sənətinin təməli hissələrindən biri olan "səhnə danışığı"na aiddir. Çox maraqlıdır ki, Hamlet əsil peşəkar tənqidçi kimi aktyorlardan səs tellərindən deyil, "maska" deyilən üsulla, yəni, "sözlər dilinizin ucunda oynayırmış kimi" oxumağı tələb edir. Daha sonra Hamlet aktyor plastikasına dair qeydlərini səsləndirir - "əlinizlə havanı həddindən artıq yarmayın". Etiraf edək ki, Hamletin

bu qeydini bu gün də bir çox aktyorlara şamil etmək olar.

Hamletin növbəti tələbi "psixoloji dürüstlük" adlanan aktyor sənətinin ən mühüm kateqoriyalarından birinə aiddir: yersiz hay-küy, ehtiraslı pafos, öz bacarığını nəyin bahasına olursa olsun, nümayiş elətdirərək "parterdəki" tamaşaçıların rəğbətini qazanmaq şövqü aktyor sənətini psixoloji ifadəlilikdən məhrum edir. Nəzərə alınsa ki, Şekspirin zamanında parterdə aşağı səviyyəli tamaşaçılar əyləşirdi, Hamletin tələbini dürüst anlamaq olar.

Etiraf etmək lazımdır ki, bu gün də duyğu-emosiyaları düşüncəsindən üstün olan bəzi aktyorlara Hamletin "Qoy, ustadınız sağlam düşüncəniz olsun" çağırışı olduqca faydalı olardı. Söz və hərəkətlərin tənzimlənmiş, harmonik vəhdətini vurğulayan Hamlet bunun əksini "aktyor ifasının vəzifəsinə xəyanət" sayır. Müəyyən mənada, bugünkü komediya aktyorları üçün də ibrətamiz bir mülahizədə Hamlet onlara "...bir neçə kütbeyin tamaşaçını güldürmək üçün" dəridən-qabıqdan çıxmamağı tövsiyə edir. Çox maraqlıdır ki, bu sətirlərin yazılmasından dörd əsrdən artıq vaxt keçməsinə baxmayaraq, bu gün də aktyor sənətində ədəbi mətnə hörmətsizlik mərəzi müşahidə olunur. Təəssüflər olsun ki, bu gün də bəzi "sənətkarlara" "təlxək rolunu oynayanlar üçün yazılanlardan artıq heç nə söyləməsinlər" tələbini təkrar xatıratmağa ehtiyac var.

Aktyor sənətinin təməllərini var gücləri ilə möhkəmlətməyə çalışan, onun qırılmazlığını təmin etməkdən usanmayan bir çox yazıçı və dramaturqlar öz klassik əsərlərində bu məsələyə xüsusi diqqət yetirmişdilər. Məsələn, A.N.Ostrovskinin "Meşə" komediyasında faciəvi aktyor Nesçatlivsev ilə komik aktyor Sçastlivsevin münasibətlərində teatr sənətinə yaxınan bələd olan dramaturq aktyor sənətinin mənəvi-əxlaqi problemlərini yüksək satirik vasitələrlə təsvir etməsinin şahidi oluruq. "Günahsız müqəssirlər" dramında isə aktyor sənətini seçənlərin mənəvi borc problemi dramatik formada araşdırılır.

Somerset Moemin "Teatr" əsərində (bax: 13) burjua cəmiyyətinin teatr və aktyor sənətinə münasibəti satira atəşinə tutulsa da, aktyor peşəsini özlərinə sənət seçən insanların da bir sıra mənəvi keyfiyyətləri tənqid olunur. Dahi A.P.Çexovun ilk dram əsəri olan "Qağayı" komediyasında dramaturq digər həyati mövzularla yanaşı, aktyor sənətinin idealına da toxunur. Bu ideal Nina Zareçnaya obrazında öz parlaq həllini və dramaturji təzahürünü tapmışdır. Özünü öldürülmüş qağayı ilə müqayisə edən gənc aktrisa buna baxmayaraq, sənət yollarında əzmlə yeriməyə özündə mənəvi güc tapır.

Azərbaycan sovet dramaturgiyasının klassiki C.Cabbarlının "Dönüş" komediyasında (1, s. 279-365) aktyor sənətinin novatorluq və intellektual səviyyəsi məsələləri qoyulur. Moskvada təhsil almış gənc rejissor Gülsabah mühafizəkarlıq çirkabında çabalayan teatrların birinə təyinatla işləməyə gəlir və yenilik uğrunda yaradıcı mübarizəyə başlayır. Müəllifin öz ideyalarını, aktyor sənəti haqqında düşüncələrini səsləndirən Gülsabah gənc aktyorları yeni ifa tərzi, sənətə yeni münasibətlə həvəsləndirərək, nəticədə, gözəl tamaşa hazırlamağa müvəffəq olur. Burada qeyd etmək lazımdır ki, "Dönüş" pyesində ortaya qoyulan bir çox problemlər təəssüflər olsun ki, teatr sənətimiz üçün hələ də aktuallığını itirməyib.

Teatr tənqidçilərinin aktyor sənəti haqqında bəzən kəskin tənqidi məqalələr yazması təsadüfi deyil. Çünki teatr sənətinin özəyi olan aktyor sənəti öz içindən islah olunaraq təkmilləşməyə meyilli olmasa, təsir və tərbiyəvi gücünü itirməyə məhkumdur. Azərbaycan milli teatr prosesinin gedişatında inkişaf edərək günlərimizə qədər gəlib çıxan milli aktyor məktəbi son illərdə öz elmi-nəzəri, konseptual əsaslandırmasını da tapıb. Görkəmli teatrşünas-alimlər C.Cəfərov (2), M.Məmmədov (8), İ.Kərimov (6), İ.Rəhimli (9), M.Əlizadə (4), İ.İsrafilov (5), A.Talıbzadə (12), V.Qafarov (7) milli teatr problemlərinə dair sanballı elmi əsərlərində aktyor sənətinə xüsusi diqqət yetirirlər.

Aktyor sənətinin tədrisinə həsr olunmuş elmi əsərlər və monoqrafiyaların sırasında F.Cəlilova, E.Cəfərov [3], A.Dadaşova, K.Cəfərova, A.Süleymanova kimi gənc teatrşünasların

məqalələri də bu sahədə toplanmış təcrübənin, aktyor sənəti tədrisində yaranan problemləri və aktyor sənəti ixtisası üzrə fənnləri tədris edən müəllimlərin qarşısında duran vəzifələri ehtiva edir.

Dahi Şekspirin ölməz qəhrəmanı Hamlet aktyorlarla "Siçan tələsi" tamaşasını hazırlayıb onu krala göstərmişdir. Göründüyü kimi, tamaşa Hamletin istəyincə alınmışdır, çünki süjetdən məlum olduğu kimi, tamaşaya adi tamaşacı halında baxmağa başlayan Klavdi qəzəblənib salonu tərk edir. Deməli, aktyor sənəti öz məqsədinə çatdı. Əslində, aktyor sənəti hər zaman məqsədinə çatıb, çatır və çatacaq da. Yetər ki, onlar zəmanəmizin güzgüsü, əsrimizin qısa salnaməsi olduqlarını unutmasınlar.

## ƏDƏBİYYAT

1. Cabbarlı C. Seçilmiş əsərləri. 4 cilddə, III cild. Bakı: Şərq-Qərb, 2005, 368 s.
2. Cəfərov C.H. Şekspir bu gün. "Ədəbiyyat və incəsənət qəzeti", 15 may 1965-ci il.
3. Cəfərov E.N. Azərbaycan teatrında konseptual rejissor sənəti: Vaqif İbrahimoğlunun yaradıcılığı. "İncəsənət və Mədəniyyət Problemləri", N 3 (45), 2017, s. 67-73
4. Əlizadə M.Ə. Teatr: seyr və sehr; milli teatr prosesi problemləri. Bakı.: Elm, 1998. 352 s.
5. İsrafilov İ.R. Zaman. Rejissor. Poetika. Bakı: Mars-Print, 1999, 273 s.
6. Kərimov İ.S. Hamlet. "Azərbaycan gəncləri" qəzeti, 15 may 1968-ci il
7. Qafarov V.R. Azərbaycan teatrının janr poetikası. Bakı, Qanun, 2012, 160 s.
8. Məmmədov M.Ə. Rejissor sənəti. Bakı: Maarif, 1971, 90 s.
9. Rəhimli İ.Ə. Azərbaycan teatr tarixi. Bakı, Çaşıoğlu, 2005. 864 s.
10. Stanislavski K.S. Seçilmiş əsərləri, 2 cilddə, I cild. Bakı: Avrasiya Press, 2011, 469 s.
11. Şekspir V. Seçilmiş əsərləri. 2 cilddə, I cild, Bakı: Öndər, 2004, 736 s.
12. Talıbzadə A.A. Faciə: Janriçi mutasiyalar, Bakı: Kritika, 2017, 212 s.

**Rus dilində**

13. С.Моем. Луна и грош. Театр. Рассказы. Москва, Правда, 1983, 576 с.

**** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Xalq artisti, dosent***
***e-mail: memmed.sefa@mail.ru***

**Mammadsafa Gasimov**

## ACTORS ARE A MIRROR OF OUR TIME

In the article, where it is researched different theories and conceptual ideas, the main subject is a actor-time relations. Here it considered development ways of theatre and particularly the features formed Stanislavski System. In the article there analyzed some opinions of world famous playwrights about theatre aesthetics.

**Keywords:** *actor, theatre, Sheaksper, Stanislavski, drama, arts*

**Маммадсафа Гасымов**

## АКТЕРЫ - ЗЕРКАЛО НАШЕГО ВРЕМЕНИ

В статье, исследующей разные теории и концептуальные идеи, в основном выдвигается мысль об отношениях актёра и времени. Здесь рассматривается путь развития театрального искусства, особое внимание уделяется формирующим особенностям системы Станиславского. В статье также проводится сравнительный анализ мнения о театральной эстетике драматургов с мировым именем.

**Ключевые слова:** *актёр, театр, Шекспир, Станиславский драматургия, искусство*

*(AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant 15.01.2021**
**Son variant 02.03.2021**